# *Gənc xilasedici və yanğınsöndürənlərin zona birinciliyi*





Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə FHN-nin yaradılmasının 10 illiyinə həsr olunmuş gənc xilasedici və yanğınsöndürənlərin Qəbələdə zona birinciliyinin keçirilməsinə başlanılmışdır. Birincilikdə Qobustan, Ağsu, Şamaxı, İsmayıllı, Qəbələ , Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarından olan məktəblilər iştirak edirlər. Komandalar şərti olaraq yük avtomobillərində və yaşayış evlərində baş verən yanğının söndürülməsi əməliyyatının uğurla başa vurulması, qısa vaxt ərzində yanğının dəf edilməsi və insanların müxtəlif vasitələrin köməyi ilə xilas edilməsi istiqamətində bacarıqlarını nümayiş etdirəcəklər.

Tədbirə ümumilkdə 150 nəfərə qədər iştirakçı qatılmışdır.

**Fotolar S. Umuyevindir.**

# *Səyyar «ASAN xidmət» Qəbələdə*

“ASAN xidmət” mərkəzlərinin təsis edilmədiyi regionlardakı əhaliyə xidmətlərin çatdırılması və mərkəzlərə gəlmədən vətəndaşların xidmətlərdən yararlanmalarının təmin edilməsi üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilmiş irihəcmli xüsusi avtobuslar səyyar formada regionlarda əhaliyə xidmətlər göstərməkdə davam edir. Bu məqsədlə iyun ayının 1-dən etibarən səyyar “ASAN xidmət”in əməkdaşları Qəbələ rayonuna gəlmiş, əhaliyə xidmət göstərməyə başlamışlar.



Səyyar şəkildə göstərilən xidmətlər Ədliyyə, Daxili İşlər nazirlikləri, Dövlət Sosial Müdafiə Fondu və Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən təqdim olunur. Göstərilən xidmətlərə notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi, fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi daxildir.

İyunun 15-dək keçirilməsi nəzərdə tutulan kompaniyada adamlara dövlət xidmətləri daha rahat, yeni və innovativ üsullarla göstəriləcək, əlçatanlıq və vətəndaş məmnunluğu təmin ediləcəkdir.

**«Qəbələ».**

# *FHN-nin Şimal-qərb Regional Mərkəzi müşavirə keçirmişdir*

Fövqəladə Hallar Nazirliyinin Şimal-Qərb Regional Mərkəzi və Dövlət Sularda Xilasetmə Xidmətinin Qəbələ Sularda Xilasetmə məntəqəsinin birgə təşkilatçılığı ilə rayonun Vəndam Qəsəbə İnzibati Ərazi Nümayəndəliyində “Su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi” mövzusunda müşavirə keçirilmişdir.

Müşavirədə Vəndam qəsəbə, Nohurqışlaq, Məmmədağalı, Həzrə kəndlərinin icra nümayəndələri, bələdiyyə sədrləri və üzvləri, sahə həkimləri, Nohur gölü ətrafında fəaliyyət göstərən istirahət obyektlərinin sahibləri və kənd sakinləri iştirak etmişlər.

Regional Mərkəzin əməkdaşları Fövqəladə Hallar Nazirliyi tərəfindən su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması, təhlükəli hadisələr zamanı insanların axtarışının və xilasının səmərəli şəkildə təşkili istiqamətində məqsədyönlü işlərin daim davam etdirilməsi, baş verə biləcək hadisələrin qarşısının alınmasında təbliğatın rolu, yay çimərlik mövsümündə su hövzələrində insanların təhlükəsizliyinin qorunması, ümumi təhlükəsizlik qaydaları, “112” qaynar telefon xətti və s. mövzularda çıxış etmişlər. Daha sonra Fövqəladə Hallar Nazirliyinin fəaliyyət istiqamətləri, strukturu və su hövzələrində istirahət zamanı təhlükəsizlik qaydalarının gözlənilməsinə dair sənədli film izlənilmişdir. Tədbirin sonunda müşavirə iştirakçılarına çimərlik ərazilərində təhlükəsizlik qaydaları haqqında bukletlər paylanılmış, onları maraqlandıran suallar cavablandırılmışdır.

**«Qəbələ».**

# *Respublika Günü ilə əlaqədar tədbir*



Qəbələ Müalicə-Diaqnostika Mərkəzində Azərbaycan Xalq Cümhuriyyəti qurulmasının 97-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə mərkəzin baş həkimi vəzifəsini müvəqqəti icra edən Kamal Məmmədov açmış, eyni zamanda Azərbaycan Xalq Cümhuriyyəti Günü münasibətilə məruzə etmişdir. Natiq bildirmişdir ki, Azərbaycan xalqı tarix boyu müstəqil dövlətçiliyi uğrunda mübarizə aparıb. Zaman-zaman müstəqil dövlətçiliyə malik olub, müəyyən dövrlərdə isə müstəqilliyini itirib. XIX əsrin əvvəllərində çar Rusiyası və İran tərəfindən bölüşdürülən Azərbaycanın şimalında təxminən 100 il sonra tarixi şərait və vətənpərvər oğulların mübarizəsi şərqdə ilk demokratik respublikanın qurulmasına imkan yaratdı. Milli mübarizə, insanların azadlıq eşqi nəticəsində 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan edilib. Azərbaycan Demokratik Respublikasının mövcud olduğu 23 ay ərzində ölkədə siyasi, iqtisadi və sosial sahədə çox böyük tədbirlər həyata keçirilib. ADR-in yaranması şərqdəki müsəlman dövlətlərin də demokratikləşməsinə böyük təkan verib.

Özünü demokratik sayan qərb dövlətlərində yalnız ötən əsrin 70-ci illərində qadınlara yüksək hüquqlar verildiyi halda, ADR-də bu hüquqların 97 il öncə verildiyi bildirilib.

Tədbirdə həmçinin ADR-in süqutunun öbyektiv və subyektiv səbəbləri barədə geniş danışılıb. ADR-in süqutundan düz 71 il sonra yaranmış müasir müstəqil Azərbaycan Respublikasının ADR-in varisi olduğu bildirilmişdir.

Tədbirdə həkim travmatoloq Ceyhun Əhmədov, tibb bacısı Aytəkin Məmmədli çıxış etmiş, tibb bacısı Gövhər Məmmədzadə Azərbaycan Xalq Cümhuriyyətinə, müstəqil Azərbaycanımıza və onun qurucusu, xilaskarı, ümummilli lider Heydər Əliyevə həsr olunmuş şeirlər söyləmişdir.

**Qüdrət SƏMƏDOV.**